# Şəkərli diabet XXI əsrin ən təhlükəli xəstəliklərindəndir

***«...İnsanın sağlamlığını qorumaq, yaxud xəstəni xəstəlikdən xilas etmək xeyirxah işdir. Bu işin reallaşdırılması vəzifəsi həkimlərin üzərinə düşür».***

***Heydər Əliyev.***

Müasir dövrümüzdə dünyanı təşvişə salan xəstəliklərdən biri şəkərli diabetdir. Bu xəstəlik artıq qlobal problem kimi ortaya çıxmışdır. Bununla əlaqədar beynəlxalq təşkilatlar səylərin birləşdirilməsi meylini gücləndirmişdir.

Şəkərli diabetin yüksək artımı eyni zamanda onun sosial, iqtisadi, psixoloji və digər probldemlərlə də bağlıdır. Məhz bu baxımdan Beynəlxalq Diabet Federasiyası və Ümumdünya Səhiyyə Təşkilatının tövsiyəsi ilə 1991-ci ildən başlayaraq hər il noyabrın 14-də Ümumdünya Diabet Günü—bu xəstəlik haqqında məlumatlandırma kampaniyası kimi səciyyələndirilmişdir. 2006-cı ildə xəstəliklə bağlı Ümumdünya Səhiyyə Təşkilatı xüsusi bəyannamə qəbul etmiş və həmin sənəddə şəkərli diabet ağır xroniki xəstəlik kimi qeyd olunmuşdur.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, 1985-ci ildə dünyada 30 milyon şəkərli diabet xəstəsi insan olduğu halda, bu gün həmin rəqəm artaraq 200 milyona çatmışdır. Hesablamalara görə 2025-ci ildən sonra şəkəprli diabet xəstələrinin sayının 380 milyon nəfərə yaxın yaxın olacağı gözlənilir. Ona görə də bu problem Ümumdünya Səhiyyə Təşkilatının qarşısında duran əsas problemdir. Xəstəliyin gecikmiş ağırlaşmaları nəticəsində ölüm faizinin yüksək olduğu mütəxəssisləri daha çox təlaşlandırır. İndi alimlər tərəfindən müəyyən olunub ki, şəkərli diabet nəinki endokrin, həm də ürək, qan-damar, şiş xəstəliklərini törədir və inkişaf etdirir.

Dünyada diabet yalnız tibbi deyil, həm də ağır sosial-iqtisadi problem sayıldığı üçün xəstəliyə düçar olan şəxslər əsasən dövlət qayğısı ilə əhatə olunurlar. Azərbaycanda keçmiş sovetlər dövründə belə yardım mexanizm işləsə də ötən əsrin 90-cı illərində bu mexanizm, demək olar ki, bütünlüklə unuduldu. Yalnız 2003-cü il dekabrın 23-də MDB məkanında ilk dəfə olaraq Azərbaycanda Milli Məclis tərəfindən «Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında» qanun qəbul edildi. Bununla da müstəqillik dövründə bu sahədə yeni bir mexanizmin əsası qoyuldu. Bu sənəd şəkərli diabetə tutulmuş insanlarla bağlı məlumatları əks etdirən registrin yaranmasından tutmuş onların insulin, həblər və özünənəzarət vasitələri ilə dövlət hesabına təminatı, endrokrinoloq-həkim və orta tibb heyətinin bacarıqlarının artırılması ümumtəhsil məktəblərində xəstə uşaqarın təhsilinin təşkilinə qədər çoxşaxəli istiqamətləri əhatə edir.

Diabetin əmələ gəlməsi üçün birinci növbədə düzgün həyat tərzi olmalıdır. İnsanların yaşadığı mühit və sosial faktorlar bu xəstəliyin yaranması üçün baza rolunu oynayır. Tələskənlik, stress halları, depressiya, piylənmə, hərəktsizlik, əsəb şəkərli diabetə aparan yoldur.

Xatırladaq ki, son illər Heydər Əliyev Fondu tərəfindən kimsəsiz uşaqların sağlamlığının təmin olunması istiqamətində həyata keçirilən sosial layihələr içərisində «Diabetli uşaqlara ən yüksək qayğı» ilə bağlı reallaşdırılan tədbirlər cəmiyyətdə böyük rezonansa və rəğbətə səbəb olmuşdur. Çox sevitndirici haldır ki, xəstələrə bu diqqət və qayğı kampaniya şəklində deyil, il ərzində müntəzəm olaraq göstərilir.

Rayon mərkəzi xəstəxanasının endokrinoloji şöbəsi də öz gündəlik fəaliyyətini Dövlət Proqramında qaşıya qoyulan vəzifələr istiqamətində qurmuşdur. Hal-hazırda rayon üzrə şöbədə 1571 nəfər şəkərli diabetlə xəstəliyə tutulmuş şəxslər kimi qeydə alınmışdır. Şöbənin həkimləri tərəfindən onlar vaxtlı-vaxtında müayinədən keçirilir, pəhriz haqqında maarifləndirmə tədbirləri aparılır, lazımi dərman preparatları, şpris və sair tibbi ləvazimatlarla təmin edilirlər.

Çalışacağıq ki, rayonda şəkərli diabet xəstəliyinə qarşı mübarizəni gücləndirək və bu xəstəliyə düçar olanları daim nəzarətdə saxlayaq.

**✍Gülbəniz KƏRİMOVA,**
**mərkəzi xəstəxananın**
**həkimi.**

# İçməli su mənbələrinin çirklənməsinin qarşısının alınması hamının borcudur

Kainatı təşkil edən dörd ünsürdən biri sudur. Su bütün canlıların və bitkilərin varlığı üçün çox vacib elementdir. Canlılar üçün su qidadan daha zəruridir. Əgər adamlar yemək yemədən həftələrlə sağ qala bilərsə, su içmədən bir neçə gün belə yaşaması mümkün deyil. İnsan bədəninin 60 faizini, insan beyninin isə daha çox qismini su təşkil edir. Bütün bunlara görə içmək üçün istifadə olunan suyun təmizliyi daim diqqət mərkəzində olmalıdır. Tədqiqatlar göstərir ki, insanlarda xəstəliklərin 80 faizi istifadə etdikləri keyfiyyətsiz su nəticəsində baş verir. Yer kürəsində hər il təxminən 200 milyon insan çirkli sudan istifadə nəticəsində müxtəlif xəstəliklərə düçar olur. İki milyona yaxın insan isə bu səbəbdən həyatını itirir.

Yoluxucu xəstəiklərin bir çoxu su vasitiəsilə yayılır. Bu xəstəliklər arasında qarın yatalağı, dezinteriya, vəba, hepatit A, salmnellyoz, paratiflər, leptospiroz və sair daha geniş yer tutur. Suda olan ağır metallar, çöküntülər insan orqanizminin zəhərlənməsinə gətirib çıxara bilər.

Respublika Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən bir sıra rayonlarda, o cümlədən Qəbələ rayonunda əksər su mənbələrindən nümunələr götürülərək kimyəvi və bakterioloji müayinə olunmuş, bəzi nümunələrdə bağırsaq çöpü bakteriyaları ilə çirklənmə aşkar edilmişdir. Bakteriyalarla su mənbələrinin çirklənməsi həmin ərazilərdə sanitariya normalarına əməl edilməməsi, bu ərazilərə tullantıların atılması nəticəsində baş verir.

Rayon gigyena və epidemiologiya mərkəzi tərəfindən aparılan araşdırma zamanı Nic qəsəbəsi, Bayramkoxalı, Zalam, Böyük Əmili, Kiçik Əmili, Yenikənd, Hacıalılı, Mollaşıxalı kəndləri və digər yaşayış məntəqələrində içməli su mənbəyi kimi istifadə olunan arteziayn quyuları ətrafında sanitariya mühafizəsi zonasının yaradılmadığı, artezian quyularının ətrafında su gölməçələrinin yarandığı, buraya cürbəcür tullantıların, o cümlədən peyinin atılması hallarına yol verildiyi aşkarlanmışdır. Bu tullantılar yağış, qar suları vasitəsilə torpağa sızaraq içməli suyun ciddi şəkildə çirklənməsinə səbəb olur.

Rayonun bəzi yaşayış məntəqələrində əhali içməli su mənbəyi kimi çaylardan da istifadə edir. Ona görə də çayların məcrası boyunca tullantı tökülməsi və ya çaylara çirkab sularının axıdılması yolverilməzdir.

İçməli su mənbələrinin sanitariya mühafizəsi, suyun hər hansı cür çirklənmədən qorunması təkcə dövlət orqanlarının, bələdiyyələrin deyil, bütün ictimaiyyətin işidir. Çünki içməli suyun çirklənməsi ayrı-ayrı fərdlər üçün deyil, hamı üçün təhlükədir.

**✍ Atif MƏMMƏDOV,**
**Qəbələ rayon GEM-nin**
**sanitariya şöbəsinin müdiri.**

# Meşələr Qəbələnin sərvətidir

Meşələr qədim Qəbələnin əvəzolunmaz sərvəti və şöhrətidir. Böyük Qafqaz sıra dağlarının ətəyində məskən salmış bu qoca diyara uzaq və yaxın ellərdən qədəm qoyan qonaqları, müxtəlif ölkələrdən gələn turistləri buranın böyük tarixə malik qədim mədəniyyəti ilə yanaşı dadlı meyvə bağları, sıx və yaşıl libaslı meşələri, durnagözlü bulaqları da valeh edir. Ona görə də rayonun meşəçiləri təbiətin bizlərə bəxş etdiyi sərvəti göz bəbəyi kimi qoruyur, meşələrin ərazisindəki boş zolaqlarda süni meşə massivləri salırlar. Bu xeyirxah və nəcib tədbirlərin həyata keçirilməsində Qəbələ Meşələrin Mühafizəsi və Bərpası Müəssisəsinin bütün işçiləri yaxından iştirak edirlər. Təzə meşələr salmaq məqsədilə bir neçə il bundan əvvəl müəssisənin kollektivi xeyli sahədə tinglik təsərrüfatı yaratmışdır. Bu tinglikdə qoz, şabalıd, palıd, ağcaqayın, çinar, şam, akasiya və başqa ağac tingləri yetişdirilir.

Müəssisənin direktoru Abdulla Kərimov söhbət əsnasında dedi ki, rayonda yerli iqlimə uyğun şabalıd, qoz tingliyinin yaradılmasına, həmin ağaclardan yeni meşə sahələri salınmasına daha çox üstünlük verilir. Gələcəkdə baramaçılığı inkişaf etdirmək üçün tut (toxmaçar) tinglərinin yetişdirilməsini də nəzərdə tutmuşuq. Müəssisənin balansında 33793 hektar meşə sahəsi var. Əvvəllər bu meşələrin mühafizəsi və bərpası sahəsində nöqsanlar olsa da, indi kollektivimizin birgə gücü ilə həmin nöqsanları aradan qaldırmağa çalışırıq. O, həmçinin qeyd etdi ki, son illər Qəbələ ərazisində meşəsalma, mövcud meşələrin qorunub saxlanılması işinə münasibət kökündən dəyişmişdir. Meşələrdə ağacların qanunsuz kəsilməsinə qarşı gündəlik mübarizəni gücləndirmişik.

Öyrəndik ki, bu il meşə təsərrüfatını genişləndirmək məqsədilə 2 hektar sahədə tinglik salınmış, 34 hektar meşə əkini aparılmışdır. Burada meşələrin təbii bərpasına xüsusi diqqət yetirilir. Fiziki maneələrdən, mal-qaradan qorumaq məqsədilə yeni salınmış meşələrin kənarlarında 5 min metrdən artıq ərazi çəpərlənmişdir. Hazırda 3 hektar tinglik sahəsində aqrotexniki qaydalarla xidmət işləri aparılır.

Müəssisənin direktoru söhbətin sonunda qeyd etdi ki, hər ağac bir abidədir. Ətraf mühitin qorunmasında, ekoloji saflığın mühafizəsində yaşıllığın rolu əvəzsizdir. Hər ağacı, hər kolu gərək diqqətlə qoruyaq, ona qayğı ilə qulluq edək. Bizim müəssisəmizdə təbiəti sevən işçilərimiz çoxdur. Təcrübəli meşəçilərdən Cavad Feyruzov, Eldar Abdurahmanov, Hüseyn Lətifov, Ozal İbrahimov və digərləri hər bir ağacın, tingin qədrini bilir, onu həvəslə becərib qoruyurlar. Müəssisənin direktoru bütövlükdə meşəçilərin işindən razılıq etdi. Meşələrin yanğından mühafizəsi məqsədilə xeyli ərazidə mühafizə zolaqları çəkilib. «Meşələr sərvətimizdir», «Hamımız meşələrimizi qoruyaq», «Söndürülməmiş siqareti yerə atmayın» çağırışları yazılan lövhələr meşələrin giriş yerlərində, magistral yol kənarlarında asılmışdır. Bu da əhalini diqqətli, məsuliyyətli olmağa çağırır.

Ümumiyyətlə meşələr Qəbələnin yaşıl sərvəti, həm də tacıdır. Qayğı görəndə zənginləşir, insanları sağlamlaşdırır, onlara xoş ovqat bəxş edir. İnsanlar da əvəzində meşələri qorumalıdır.

**✍ Aslan CƏLİLOV.**